# COP29 tədbirinə hazırlıq çərçivəsində bəzi avtobus marşrutlarının hərəkət sxemləri müvəqqəti olaraq dəyişdiriləcək

Azərbaycanda keçiriləcək COP29 beynəlxalq iqlim konfransı zamanı paytaxtda nəqliyyat hərəkətinin idarə olunmasının optimallaşdırılması, şəhər nəqliyyatının təhlükəsiz və nizamlı təşkili, eləcə də hərəkət iştirakçılarının rahatlığının təmin edilməsi məqsədilə noyabrın 3-də saat 10:00-15:00 arası bir sıra müntəzəm avtobus marşrutlarının hərəkət sxemləri və son dayanacaq məntəqələri dəyişdiriləcək.

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyindən (AYNA) AZƏRTAC-a bildirilib ki, hərəkət sxemləri dəyişdirilən avtobus marşrutlarının siyahısı aşağıdakılardır:

-Məmmədli, Buzovna, Maştağa, Bilgəh, Nardaran, Ramana, Balaxanı qəsəbələri və Albalılıq, Savalan (139 nömrəli marşrut) yaşayış massivlərində fəaliyyət göstərən marşrut avtobusları Zabrat şosesindən Balaxanı yolu ilə metronun “Ulduz” stansiyasınadək;

-Badamdar, Lökbatan və Bayıl qəsəbələri, Yasamal Yaşayış Kompleksi, Yeni Yasamal yaşayış massivi, 9-cu mikrorayon, Bakı Beynəlxalq Avtovağzal Kompleksindən şəhər mərkəzi istiqamətində fəaliyyət göstərən marşrut avtobusları metronun “Elmlər Akademiyası” stansiyasınadək;

-Sabunçu dəmiryol stansiyasından Bakıxanov qəsəbəsi və metronun “Neftçilər” stansiyası istiqamətində fəaliyyət göstərən marşrut avtobusları Asif Əsədullayev və Yavər Əliyev küçələri ilə;

-Ramana qəsəbəsindən və Sabunçu dəmiryol stansiyasından Qara Qarayev prospekti istiqamətində fəaliyyət göstərən marşrut avtobusları Balaxanı yolu ilə;

-Metronun “Dərnəgül” stansiyasından Sabunçu dəmiryol stansiyasına fəaliyyət göstərən marşrut avtobusu Balaxanı yolu ilə;

-Metronun “Dərnəgül” stansiyasından Badamdar qəsəbəsinə, həmçinin Yeni Yasamal yaşayış massivindən 7 saylı “ASAN Xidmət” mərkəzinə fəaliyyət göstərən marşrut avtobusları Ş.Mehdiyev, H.Əliyev, S.Vurğun, Mərdanov qardaşları, Bakıxanov küçələri, əks istiqamətdə isə N.Yusifbəyli, S.Vurğun, H.Əliyev, Ş.Mehdiyev küçələri ilə hərəkət edəcək.

Bundan başqa, COP29 konfransının baş tutacağı məkanlar istiqamətində nəqliyyat hərəkətinin intensivləşəcəyi nəzərə alınaraq, bu ərazilərdə sıxlığı azaltmaq, sakinlər və qonaqlar üçün təhlükəsiz və səmərəli nəqliyyatı təmin etmək məqsədilə bəzi avtobus marşrutlarının son dayanacaq məntəqəsi dəyişdirilib.

Son dayanacaq məntəqəsi dəyişdirilən müntəzəm avtobus marşrutları aşağıdakılardır:

-Metronun “Nəriman Nərimanov” stansiyası, 7-ci və 9-cu mikrorayondan şəhər mərkəzi istiqamətində fəaliyyət göstərən marşrutların son dayanacaq məntəqəsi metronun “28 May” stansiyasının yaxınlığı;

-Əhmədli qəsəbəsi, Cəmşid Naxçıvanski küçəsi (“8-ci kilometr” bazarı), Sabunçu qəsəbəsi (68 nömrəli məktəb) ərazilərdən şəhər mərkəzi istiqamətində fəaliyyət göstərən marşrutların son dayanacaq məntəqəsi metronun “Xətai” stansiyası;

-Zabrat qəsəbəsi “Kərpic zavod” və “Yeni məhəllə” adlanan ərazilərdə, həmçinin 71 nömrəli məktəbin yaxınlığında fəaliyyət göstərən marşrutların son dayanacaq məntəqəsi Sabunçu dəmiryol stansiyası;

-Ramana – Yeni yaşayış kompleksi (Ramana qəsəbəsi, 163 nömrəli marşrut), Suraxanı qəsəbəsi və Ramana qəsəbəsi (“Şuşa şəhərciyi” adlanan ərazi) fəaliyyət göstərən marşrutların son dayanacaq məntəqəsi “Koroğlu” Nəqliyyat Mübadilə Mərkəzi (“Piramida” tərəf, dəmiryol stansiyası);

-Pirşağı qəsəbəsi, Pirşağı bağlarında və Savalan yaşayış massivində (197 nömrəli marşrut) fəaliyyət göstərən marşrutların son dayanacaq məntəqələri Zabrat dairəsi;

-Hövsan qəsəbəsindən şəhər mərkəzinə fəaliyyət göstərən marşrutun son dayanacaq məntəqəsi metronun “Həzi Aslanov” stansiyası;

-Günəşli qəsəbəsindən şəhər mərkəzinə fəaliyyət göstərən marşrutun son dayanacaq məntəqəsi Ramiz Quliyev küçəsi (Radiozavod, “Bravo” market);

-Şüvəlan və Qala qəsəbələrindən şəhər istiqamətində fəaliyyət göstərən marşrut avtobusları Qala-Pirallahı yolu və Zığ şosesi ilə hərəkət edəcək. Marşrutun son dayanacaq məntəqəsi metronun “Əhmədli” stansiyası;

-Binə qəsəbəsindən şəhər istiqamətində fəaliyyət göstərən marşrut avtobusu Zığ şosesi ilə hərəkət edəcək. Marşrutun son dayanacaq məntəqəsi metronun “Həzi Aslanov” stansiyası;

-Bakı Beynəlxalq Avtovağzal Kompleksindən "Koroğlu" Nəqliyyat Mübadilə Mərkəzi istiqamətində fəaliyyət göstərən marşrutun son dayanacaq məntəqəsi "Gənclik" Nəqliyyat Mübadilə Mərkəzi;

-"AzərSu" Tikinti Xəstəxanasından Sabunçu qəsəbəsi istiqamətində fəaliyyət göstərən marşrutun başlanğıc dayanacaq məntəqəsi "AzərSu" Tikinti Xəstəxanası, son dayanacaq məntəqəsi isə metronun "Neftçilər" stansiyası;

-Cəmşid Naxçıvanski adına hərbi liseydən "Koroğlu" Nəqliyyat Mübadilə Mərkəzi istiqamətində fəaliyyət göstərən marşrutun son dayanacaq məntəqəsi Yavər Əliyev küçəsi (Bakıxanov qəsəbəsi);

-Sahil qəsəbəsindən metronun "Sahil" stansiyası istiqamətində fəaliyyət göstərən marşrutun son dayanacaq məntəqəsi "Lökbatan" Nəqliyyat Mübadilə Mərkəzi (Lökbatan dairəsi);

-Keşlə qəsəbəsindən Qara Qarayev prospekti ilə "Koroğlu" Nəqliyyat Mübadilə Mərkəzinə daxil olan marşrutun son dayanacaq məntəqəsi Azər Manafov küçəsi (metronun "Qara Qarayev" stansiyası) təyin edilib.

Qeyd edək ki, müvəqqəti dəyişikliklər xarici ölkə liderlərinin, iqlim dəyişikliyi üzrə ekspertlərin və mütəxəssislərin iştirak edəcəyi COP29 zamanı şəhərdə ictimai nəqliyyatın hərəkətində gecikmələrin qarşısını almağa və piyadaların təhlükəsizliyini artırmağa kömək edəcək.

**AZƏRTAC**
**2024, 3 noyabr**